# QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Zəfərdən quruculuğa: Prezident İlham Əliyevin liderlik missiyası




3


№ 236 (7404)

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

23 dekabr 2025-ci il.
Qiyməti 60 qəpik


## Prezidentdən MÜHÜM SƏRƏNCAM - aztəminatlı ailələrə birdəfəlik maddi yardım veriləcək



Aztəminatlı ailələrə birdəfəlik maddi yardım veriləcək. SİA xəbər verir ki, Prezident İlham Əliyev Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə "Aztəminatlı ailələrə birdəfəlik maddi yardım verilməsi haqqında" Sərəncam imzalayıb. Sərəncama əsasən, 2025-ci il dekabrın 30-u tarixinə ünvanlı dövlət sosial yardımı alan ailələrin hər birinə 200 (iki yüz) manat məbləğində birdəfəlik maddi yardım veriləcək.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə, Azərbaycan Respublikasının Nazirlər Kabinetinə və Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə bu Sərəncamdan irəli gələn məsələləri həll etmək tapşırılıb.

# Amnistiya aktı cəmiyyətdə həmrəyliyin möhkəmlənməsinə xidmət edir



6

## Əhməd İsmayılov: Media savadlılığının artırılması məqsədilə ardıcıl tədbirlər keçirilir



4

## "Avropa Parlamentinin Azərbaycana qarşı sərt mövqeyi ikili standart siyasətidir"



7

## Hamı yatanda mətbəxə gedənlər: bu davranış nə deyir?



8

## Paşinyan Peterburqdan "HƏ" cavabı ilə qayıdır?



4

## Ağ Ev İranla müharibəyə hazırlaşır?



3

*"Azərbaycanda aparılan islahatlar, düşünülmüş siyasət ölkəmizin hərtərəfli inkişafına təkan verdi. Bu gün Azərbaycan gələcəyə çox böyük ümidlərlə, nikbinliklə baxır. Bunun əsas səbəbi iqtisadi müstəqillikdir, iqtisadi gücümüzdür və siyasi iradədir"-* **Prezident İlham Əliyev**



# Güclü iqtisadiyyata malik güclü dövlət yaradan lider!

**(2-ci yazı)**

PORTRET

Azərbaycan Prezidenti İlham Əliyevin ən böyük uğurlarından biri ölkəmizin iqtisadi müstəqilliyini təmin etməsi və güclü iqtisadi-maliyyə imkanlarına malik bir dövlət formalaşdırmasıdır. Məhz bu iqtisadi və maliyyə gücü ölkəmizin dünyada mövqelərini möhkəmləndirmiş, ölkə iqtisadiyyatının inkişafına və əhalinin sosial rifahının yaxşılaşdırılmasına imkan vermişdir.

## Dayanıqlı sosial-iqtisadi inkişaf necə təmin olundu?

Prezident İlham Əliyevin ölkəyə rəhbərlik etdiyi dövrdə bütün sahələr davamlı inkişaf edib.

İqtisadiyyatın inkişafı və insanların sosial rifah halının yüksəldilməsi məqsədilə Prezident İlham Əliyevin təşəbbüskarı olduğu qanun layihələri, həmçinin imzaladığı fərman və sərəncamlar əsasında həyata keçirilən sosial-iqtisadi layihələr vətəndaşlarımızın yaşayış səviyyəsinə öz müsbət təsirini göstərir. Prezident İlham Əliyevin rəhbərliyi ilə görülmüş genişmiqyaslı işlər, sistemli və ardıcıl tədbirlər, dərin islahatlar nəticəsində hazırda Azərbaycan siyasi və makroiqtisadi baxımdan sabit, təhlükəsiz ölkə, regionun siyasi, iqtisadi və mədəni mərkəzi, irimiqyaslı enerji, nəqliyyat və infrastruktur layihələrinin təşəbbüskarı və fəal iştirakçısı, Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində etibarlı tərəfdaş, dünya kosmos ailəsinin üzvü, mühüm tranzit qovşağıdır. Beş fundamental nəticə-qalib dövlət, beynəlxalq nüfuz, təhsilli cəmiyyət, böyük iqtisadi potensial və yüksələn rifah ölkənin sosial-iqtisadi inkişaf nailiyyətlərini xarakterizə edir. Bu nailiyyətlər uzunmüddətli dövrdə ölkə iqtisadiyyatı üçün keyfiyyətcə yeni sosial-iqtisadi inkişaf simasının formalaşmasına böyük töhfə verəcəkdir.

Ölkənin tarixi ərazi bütövlüyünün bərpası iqtisadiyyatın perspektiv inkişafı ideyalarının reallaşmasına zəmin yaratmışdır.

Ölkə iqtisadiyyatında makroiqtisadi sabitlik və dayanıqlıq təmin edilmiş, sosial rifahı dəstəkləyən iqtisadi artıma nail olunmuşdur. İqtisadiyyat iki qlobal maliyyə böhranından uğurla çıxmış, ölkə iqtisadiyyatı xarici təsirlərə davamlı olmuşdur. Həyata keçirilən köklü struktur-institusional islahatlar nəticəsində milli iqtisadiyyatın strukturu dəyişmiş, qeyri-neft sektorunun payı xeyli yüksəlmişdir. Aparılan məqsədyönlü siyasət nəticəsində qeyri-neft sektorunda özəl sektorun payı əhəmiyyətli böyümüşdür. İqtisadiyyatda kiçik və orta biznesin dominantlığı xeyli yüksəlmişdir.

Ölkənin ərzaq təhlükəsizliyinin gücləndirilməsi üçün yerli istehsal potensialı və infrastruktur təminatı inkişaf etdirilmişdir. Qeyri-neft/qaz sahələrinin, xüsusilə özəl təşəbbüslərin sürətli inkişafında xarici investisiyalar mühüm rol oynamışdır. Dövlət büdcəsi həm sosial rifahın dəstəklənməsində, həm də iqtisadi fəallıq üçün investisiyaların təmin olunmasında aktiv olmuşdur.

İqtisadi artım bütün vətəndaşların sosial rifahını yaxşılaşdırmışdır. Ölkədə əhalinin sosial rifahının yaxşılaşdırılması istiqamətində ardıcıl genişmiqyaslı dövlət proqramları həyata keçirilmişdir. Ölkədə yoxsul təbəqənin ehtiyaclarının qarşılanmasına yönələn ünvanlı dövlət sosial yardımı genişləndirilmiş, aztəminatlı ailələrin təminatı daha da gücləndirilmişdir.

Keyfiyyətli insan kapitalının hazırlanması prosesinin mühüm mərhələsi olan məktəbəqədər təhsildə göstəricilər yaxşılaşmışdır. Təhsilin keyfiyyətinin yaxşılaşdırılması məqsədilə müəllim-pedaqoq heyətinin inkişafı və motivasiyası diqqətdə saxlanılmışdır. Ölkədə təhsilə çıxışın yaxşılaşdırılması məqsədilə müasir texnologiyaya əsaslanan təhsil infrastrukturu yaradılmışdır.

Elmi tədqiqat potensialı müasirləşdirilmiş, tətbiqyönlü tədqiqatların aparılması genişləndirilmiş, müasir texnologiyaların tətbiqi imkanları yaranmış və bu prosesdə əqli mülkiyyətin rolu artırılmışdır.

Keyfiyyətli səhiyyə xidmətlərinə əlçatanlıq davamlı yaxşılaşmışdır. Ölkədə təmiz ekoloji mühit dəstəklənmiş, mövcud təbii resurslardan dayanıqlı və səmərəli istifadə ilə yanaşı, bərpa olunan enerji mənbələrinin dövriyyəyə cəlbi imkanları genişlənmişdir. Son illərdə dünya iqtisadiyyatında baş verən dəyişikliklər fonunda koronavirus pandemiyasının təhdidləri uğurla aradan qaldırılmışdır.

Göründüyü kimi, vaxtında aparılmış uğurlu iqtisadi islahatlar ölkəmizin davamlı inkişafını və sosial-iqtisadi təhlükəsizliyini təmin etmişdir.

## Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər

Azərbaycan dövləti postpandemiya və postkonflikt dövründə keyfiyyətcə yeni olan və 2022-2030-cu illəri əhatə edən strateji inkişaf mərhələsinə daxil olub. Bu strateji dövrdə yeni nəsil struktur və institusional islahatlar vasitəsilə iqtisadi artımın müasir və dayanıqlı mənbələrinin hərəkətə gətirilməsi, milli iqtisadiyyatın innovasiya yönümünün və maliyyə dayanıqlığının daha da gücləndirilməsi, ölkə iqtisadiyyatının qlobal dəyər zəncirinə səmərəli inteqrasiya yolu ilə Azərbaycan dövləti öz qüdrətini daha da artırmaqla, yüksək rifah cəmiyyətinin qurulması istiqamətində yeni hədəfləri gerçəkləşdirmək əzmindədir. Məhz bu məqsədlə "Azərbaycan-2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" (bu haqda yazımızla buradan tanış ola bilərsiniz - https://sesqazeti.az/news/main/1304403.html) təsdiq edilmişdir.

Növbəti onillikdə ölkənin sosial-iqtisadi inkişafına dair aşağıdakı 5 Milli Prioritet reallaşdırılmalıdır:

-dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyat;

-dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyət;

-rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı;

-işğaldan azad olunmuş ərazilərə böyük qayıdış;

-təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi.

Qeyd edilən Milli Prioritetlər, eyni zamanda, Birləşmiş Millətlər Təşkilatının "Dünyamızın transformasiyası: 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik"dən irəli gələn öhdəliklərin icrası istiqamətində də xüsusi əhəmiyyət kəsb edir.

Növbəti strateji dövrdə "Qüdrətli dövlət və yüksək rifah cəmiyyəti"nə çevrilmək üçün mövcud sosial-iqtisadi modelin məzmunu və strukturu əhəmiyyətli dərəcədə yenilənəcəkdir.

Bu əsasda qəbul edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" müasir inkişaf ideologiyasına əsaslanan yeni sosial-iqtisadi artım modelinin bazasında həyata keçiriləcəkdir. Bu model ölkənin bütün resurslarını və nailiyyətlərini səfərbər etməklə, onları uzunmüddətli dövrdə qarşıya qoyulan strateji vəzifələrin reallaşmasına yönəldəcəkdir.

Bu sosial-iqtisadi inkişaf modelinin iki mərhələdə həyata keçirilməsi nəzərdə tutulur. Birinci mərhələdə (2022-2026-cı illər) sosial-iqtisadi inkişaf modelinin 2030-cu ilədək uğurla reallaşdırılması üçün təməl şərtlər işə salınacaqdır. 2027 2030-cu illəri əhatə edəcək ikinci mərhələdə isə bu təməl şərtlərin komplementarlığı şəraitində milli iqtisadiyyatın keyfiyyətcə yeni simasının yaradılmasına nail olunacaqdır.

## "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"

Prezident İlham Əliyev tərəfindən 22 iyul 2022-ci ildə imzalanmış "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" (bu haqda bu yazımızda oxuya bilərsiniz-https://sia.az/az/news/media/971375.html) uğurla icra olunur və bu, ölkənin sosial, iqtisadi və institusional inkişafı üçün mühüm zəmin yaratmışdır. Strategiya sosial-iqtisadi inkişaf üzrə müəyyən edilmiş 5 Milli Prioritet əsasında həyata keçirilir. Həmin Strategiyanın ardıcıl və sistemli icrası sayəsində iqtisadiyyatın xarici təsirlərə qarşı dayanıqlığı daha da möhkəmlənmiş, şaxələnməsi dərinləşmiş, iqtisadi artım davamlı və inklüziv xarakter almış, əhalinin rifah səviyyəsi yüksəlmiş və gələcək nəsillər üçün irihəcmli maliyyə ehtiyatları formalaşmışdır. Azərbaycan qarşıdakı illərdə daha mürəkkəb çağırışların və zəngin imkanların mövcudluğu ilə seçilən yeni mərhələyə daxil olur. Bu mərhələ qlobal iqtisadi qütbləşmənin dərinləşməsi, texnoloji tərəqqinin sürətlənməsi, eləcə də süni intellekt əsaslı texnologiyaların geniş tətbiqi ilə səciyyələnir. Bununla bağlı Prezident İlham Əliyev "Azərbaycan Respublikasının 2027 2030-cu illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın hazırlanmasını tapşırmışdır.

Ümumiyyətlə, Milli Prioritetlərin əhatə etdiyi 8 ilin keçən 4 ilində əldə olunmuş nəticələrin qarşıdakı 4 ildə isə nəzərdə tutulan hədəflərin reallaşağına zəmin yaratması haqda heç bir şübhə yoxdur. Bundan sonrakı dövr yeni texnologiyaların tətbiqi, elmtutumlu sahələrin inkişafı, yaşıl iqtisadiyyatın formalaşdırılması və davamlı iqtisadi inkişaf modelinin tam formalaşdırılması dövrü kimi xarakterizə olunur.

İndiyəqədərki sosial-iqtisadi islahatların ölkəmizə nələr qazandırdığı və qarşıya qoyulan hədəflərin yaxın gələcəkdə nələr qazandıracağı haqda faktları yazımızın sonrakı hissəsində oxuyacaqsınız.

*(ardı var)*

***Elçin Bayramlı***

# Zəfərdən quruculuğa: Prezident İlham Əliyevin liderlik missiyası








**Dekabrın 22-də "Konstitusiya və Suverenlik İli" çərçivəsində Yeni Azərbaycan Partiyası (YAP) və Azərbaycan Memarlıq və İnşaat Universitetinin birgə təşkilatçılığı ilə "Zəfərdən quruculuğa: Prezident İlham Əliyevin liderlik missiyası" adlı tədbir keçirilib. Tədbirdən öncə Universitet ərazisində müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin büstü ziyarət olunaraq əziz xatirəsi ehtiramla yad edilib.**

Tədbirdə Ulu Öndər Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla anılıb. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Çıxış edən Azərbaycan Memarlıq və İnşaat Universitetinin rektoru, professor Gülçöhrə Məmmədova diqqətə çatdırıb ki, dövlət idarəçiliyində liderin rolu təkcə inkişafın təmin olunması ilə məhdudlaşmır, eyni zamanda, cəmiyyətdə sabitliyin möhkəmlənməsi və milli tərəqqinin davamlı xarakter alması baxımından mühüm əhəmiyyət kəsb edir: "Xalqa verdiyi sözlərə sadiqliyini əməli fəaliyyəti ilə təsdiqləyən, hər bir azərbaycanlının Prezidenti olduğunu sübut edən cənab İlham Əliyevin fəaliyyəti ölkəmizin gücünün daha da artmasına yönəlmiş ardıcıl strateji xətt üzərində qurulub. Dövlət başçısı Azərbaycanın inkişafını təmin etməklə xalqın dərin etimadını qazanıb. Milli maraqları daim prioritet hesab edən dövlət başçısının siyasəti xalqımızın birliyini daha da möhkəmləndirib".

G.Məmmədova vurğulayıb ki, dövlət başçısının düşünülmüş siyasəti ölkənin sosial-iqtisadi inkişafında, eləcə də milli maraqların qorunmasında öz ifadəsini tapır: "Uğurlu daxili və xarici siyasət nəticəsində Azərbaycan dünyada nüfuzlu dövlət, tolerantlıq nümunəsi, mühüm beynəlxalq tədbirlərin keçirildiyi etibarlı tərəfdaş kimi tanınır".

Dövlət başçısının təhsilin inkişafını daim diqqət mərkəzində saxladığını vurğulayan rektor ölkədə həyata keçirilən uğurlu gənclər siyasətinin də müasir Azərbaycanın gələcəyinə xidmət etdiyini söyləyib.

YAP Sədrinin müavini – Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov çıxışında qeyd edib ki, qüdrətli və qalib Azərbaycan reallığı xalqımızın Ümummilli Lideri Heydər Əliyevin əbədiyaşar ideyaları və tükənməz dövlətçilik irsi ilə bağlıdır: "Ulu Öndərin milli maraqlara əsaslanan uzaqgörən siyasəti Azərbaycanın müstəqil dövlət kimi tərəqqisini təmin edib. Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev Ümummilli Liderin dövlətçilik irsini müasir dövrün çağırışlarına uyğun zənginləşdirərək uğurlu siyasət həyata keçirməklə ölkəmizə tarixi nailiyyətlər qazandırıb".

Tahir Budaqov bildirib ki, Prezident İlham Əliyevin liderliyi ilə Azərbaycan öz iqtisadi, siyasi, hərbi gücü və xalqımızın əzmkar mövqeyi sayəsində möhtəşəm Zəfərə imza atıb: "Ölkəmizin ərazi bütövlüyü və tam suverenliyinin bərpası Heydər Əliyev ideyalarının təntənəsi, Prezident İlham Əliyevin qətiyyətli siyasətinin, diplomatik məharətinin real nəticəsidir. Şübhə yoxdur ki, Heydər Əliyev ideyalarına sadiq qalaraq məqsədyönlü siyasət həyata keçirən, xalqın inam və etimadını doğruldan və ata vəsiyyətini şərəflə yerinə yetirən, sözünün imzası qədər dəyərli olduğunu hər zaman təsdiq edən qətiyyətli Lider – Prezident İlham Əliyev Azərbaycanı daha parlaq gələcəyə aparacaq, xalqımıza yeni zəfərlər bəxş edəcəkdir".

Sonra çıxış edənlər Ulu Öndər Heydər Əliyevin zəngin dövlətçilik irsi və Prezident İlham Əliyevin uğurlu siyasəti nəticəsində qazanılan uğurlardan bəhs ediblər. Tədbirdə Yeni Azərbaycan Partiyasının sıralarına yeni qəbul olunmuş Universitet əməkdaşlarına üzvlük vəsiqələri təqdim edilib. Daha sonra Yeni Azərbaycan Partiyasının Himni səsləndirilib. Sonda bədii hissə təqdim olunub və xatirə şəkli çəkdirilib.

# Ağ Ev İranla müharibəyə hazırlaşır?



İsrail rəhbərliyi Tramp administrasiyasına İrana təkrar zərbələrin endirilməsi üçün müxtəlif variantlar təqdim etməyə hazırlaşır. Bu məsələ ilə bağlı müzakirənin baş nazir Benyamin Netanyahunun bu ay Amerika liderinin Mar-a-Laqodakı şəxsi iqamətgahına planlaşdırılan səfəri zamanı aparılacağı gözlənilir. Yəhudi dövləti İranın nüvə proqramı üzrə bərpa işlərindən, eləcə də Tehranın ballistik raket arsenalını sürətlə canlandırmasından təşvişə düşüb. İran hakimiyyət orqanları müharibənin təkrarlanma ehtimalını özləri hesablayırlar. İsrailin hesablamalarına görə, İranın müdafiə obyektlərinə qarşı tədbirlər görülməsə, İsrail üçün təhlükə yarada bilən ballistik raketlərin istehsalı indiki sürətlə ildə 3000-ə qədər arta bilər.

Hələ bu ilin iyununda "Şir kimi insanlar" əməliyyatına başlamazdan əvvəl İsrail rəhbərliyi ABŞ-a dörd mümkün hərbi əməliyyat təqdim etmişdi. Bir ssenaridə yəhudi dövlətinin ayrıca hərbi kampaniyası nəzərdə tutulurdu. İkinci variant isə İsrailin ABŞ-ın məhdud dəstəyi ilə əməliyyat keçirməsidir. Üçüncüsü, ABŞ və İsrailin İrana qarşı birgə hərbi əməliyyatıdır. Dördüncüsü isə Amerika qüvvələrinin müstəqil əməliyyat keçirməsidir. Nəhayət, Tramp birgə əməliyyata üstünlük verdi. İsrailin planlarından birbaşa xəbəri olan NBC mənbəsi yəhudi dövlətinin bu dəfə Ağ Evə oxşar variantları təqdim edə biləcəyini irəli sürüb.

İranla bağlı müzakirənin Netanyahunun bu ay Mar-a-Laqoya səfəri zamanı baş tutacağı gözlənilir. İsrail rəsmiləri daha əvvəl səfərin ilin sonuna qədər baş tutacağını təsdiqləyiblər. Trampın yaxın ətrafının fikrincə, o, hazırda İranla yeni müharibəyə ən az meyllidir və 12 günlük müharibədən sonra İranın nüvə proqramının əhəmiyyətli dərəcədə zəifləyəcəyinə inanır. Bununla belə, yəhudi dövləti Vaşinqtondan fəal dəstək tələb edir, o cümlədən İranın nüvə infrastrukturunun yeraltı elementlərinə çata bilən güclü bunkerləri məhv edən bombalardan istifadə etməklə. İsrail baş nazirinin təkrar əməliyyatın lehinə arqumentlərindən biri İranın hərbi potensialını bərpa etmək üçün yeni addımlarının Amerikanın Yaxın Şərqdəki maraqlarını təhdid edə biləcəyi nəzəriyyəsi ola bilər.

ABŞ Beynəlxalq Elm və Təhlükəsizlik Tədqiqatları İnstitutu (BSİ) təsdiq edir ki, hazırda İranın nüvə obyektlərində bərpa işləri aparılır. Dekabr ayına aid peyk görüntülərinə istinadən, İranın 12 günlük müharibə nəticəsində dağılmış Natanz nüvə obyektini qorumağa çalışdığını bildirib. "Bu, İranın zibilləri kənar baxışlardan uzaqda araşdırmaq istədiyini göstərir. Obyektdə çox güman ki, bir neçə kiloqram yüksək zənginləşdirilmiş uran saxlanılıb - İranın ümumi ehtiyatı ilə müqayisədə kiçik bir miqdar, lakin əhəmiyyətsiz deyil. Natanzda və hətta Fordoda başqa heç bir fəaliyyət müşahidə olunmayıb", - BKS bildirib.

Bu yaxınlarda İranın Atom Enerjisi Təşkilatının sözçüsü Behrouz Kamalvandi ölkəsinin "nüvə gücünün son həddinə" çatdığını və nüvə inkişaflarında "artıq heç bir naməlum məqamın olmadığını" qeyd edib. Hərbi nüvə silahını ehtiva etsə belə. "Ən sadə məsələ nüvə bombası yaratmaqdır, çünki o, yanacağa nəzarət tələb etmir və dərhal partlayır", - deyə rəsmi qeyd edib və əlavə edib ki, bu, atom elektrik stansiyasının tikintisindən çox sadədir. "Yanacaq səviyyəsinin və reaktivliyin monitorinqini tələb edən atom elektrik stansiyasının tikintisi mürəkkəb və texniki cəhətdən tələbkar bir prosesdir", - Kamalvəndi əlavə edib.

İranın özü çox güman ki, zərbə gözləyir. Tehrana müxalif bir peyk kanalı olan İran İnternational-dakı mənbələr Qərb kəşfiyyatının son vaxtlar İran Aerokosmik Qüvvələrinin qeyri-adi fəaliyyəti aşkarladığını bildirib. Bu qiymətləndirmələrə görə, avadanlıq köçürülür. Bu, İran qüvvələrinin pilotsuz təyyarələr, raketlər və hava hücumundan müdafiə sistemlərindən istifadəsini əhatə edir. İran Beynəlxalq mənbələri bunun elan olunmamış hərbi təlimlərlə bağlı ola biləcəyini istisna etmir, lakin aksiyaların miqyası çox qeyri-adidir. Bu, Qərb kəşfiyyatını İslam Respublikasına nəzarəti artırmağa vadar edib.

***V.VƏLİYEV***

# “SƏS” qəzetinin redaksiyasında dəyirmi masa keçirilib



***Dünən "SƏS" qəzetinin redaksiyasında “2003–2025-ci illər ərzində həyata keçirilən uğurlu dövlət siyasətinə həsr olunmuş” dəyirmi masa keçirilib. Sözügedən toplantı "SƏS" qəzetinin təşkil etdiyi ənənəvi müzakirə platformalarından biri kimi diqqət çəkib.***

Dəyirmi masada Milli Məclisin deputatları, tanınmış ictimai-siyasi xadimlər və elm adamları çıxış edərək son 22 ildə ölkənin sosial, iqtisadi və siyasi inkişafını təmin edən dövlət siyasətinin əsas istiqamətləri barədə fikir və dəyərləndirmələrini bölüşüblər. Tədbirdə Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev, millət vəkili Azər Badamov, Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Aydın Mirzəzadə, siyasi elmlər üzrə fəlsəfə doktoru Rufiz Qonaqov iştirak ediblər.

Müzakirələr zamanı Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən islahatların ölkənin davamlı inkişafına verdiyi töhfələr, sosial rifahın yüksəldilməsi və dövlətçilik ənənələrinin möhkəmləndirilməsi xüsusi vurğulanıb.

Millət vəkili Musa Quliyev çıxışında bildirib: ”Cənab Prezident İlham Əliyevin rəhbərliyi dövründə Azərbaycan Respublikası çoxşaxəli və dinamik inkişaf yolu keçmiş, sosial, iqtisadi, hərbi və siyasi sahələrdə mühüm nailiyyətlər əldə edilib. Dövlət başçısının müvafiq sərəncamı ilə “Suverenlik İli”nin elan olunması bu inkişafın məntiqi yekunu kimi çıxış edir və Azərbaycanın ən böyük tarixi uğurlarından biri hesab olunur. Bu qərar eyni zamanda Azərbaycan Respublikasının Konstitusiyasının qəbul edilməsinin 30 illiyi və ölkənin suverenliyinin tam bərpa olunması ilə üst-üstə düşərək xüsusi siyasi və simvolik məna daşıyır.

Müstəqillik dövründə Azərbaycanın keçdiyi inkişaf yolunun ən ali mərhələsi torpaqlarımızın işğaldan azad edilməsi, ərazi bütövlüyünün və dövlət suverenliyinin tam təmin olunmasıdır. Bu nailiyyətlər təsadüfi xarakter daşımır, uzunmüddətli və məqsədyönlü sosial-iqtisadi inkişaf strategiyasının nəticəsidir. Xüsusilə hərbi sənayenin formalaşdırılması, ordu quruculuğu prosesinin ardıcıl və sistemli şəkildə həyata keçirilməsi, vətənpərvər gənc nəslin yetişdirilməsi bu tarixi qələbələrin əsas təminatçısı olub.

Eyni zamanda, son 22 il ərzində ölkədə genişmiqyaslı sosial islahatlar aparılıb və sosial sahədə ciddi sıçrayışlar qeydə alınıb. Belə ki, bu dövr ərzində sosial müdafiə xərcləri 22 dəfə artmış, minimum əməkhaqqı 40 dəfə, orta aylıq əməkhaqqı 14 dəfə yüksəlib. Minimum pensiya 15 dəfə, orta aylıq pensiya isə 20 dəfə artıb. Bu göstəricilər sosial siyasətin effektivliyini aydın şəkildə nümayiş etdirir və qeyd olunan artımların faizlərlə deyil, dəfələrlə ifadə olunması Azərbaycanın artan iqtisadi gücünün və dayanıqlı inkişaf modelinin bariz göstəricisi kimi dəyərləndirilir”.

Millət vəkili Azər Badamovun sözlərinə görə, Azərbaycanın həyata keçirdiyi ardıcıl və məqsədyönlü siyasət nəticəsində ölkəmizin ərazi bütövlüyünün təmin olunması istiqamətində həlledici nailiyyətlər əldə edilib, müstəqil Azərbaycan dövlətinin möhkəm təməli formalaşdırılıb. Ümummilli lider Heydər Əliyevin uzaqgörən rəhbərliyi ilə dövlətçilik prinsipləri bərqərar edilib, siyasi və institusional əsaslar yaradılıb. Prezident İlham Əliyevin rəhbərliyi dövründə isə bu əsaslar üzərində müasir, güclü və dinamik inkişaf edən Azərbaycan dövləti yüksəlib.



Bu gün Azərbaycan beynəlxalq aləmdə nüfuzlu və etibarlı tərəfdaş kimi tanınan dövlətlər sırasında yer alır. Uğurlardan bəhs edərkən xüsusilə vurğulanmalı məqam ölkənin iqtisadi gücüdür. Ümummilli lider Heydər Əliyevin “iqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir” fikri Azərbaycanın inkişaf strategiyasının əsas ideya xəttini təşkil edib. Məhz bu baxımdan son 22 il ərzində əldə olunan nailiyyətlərin əsasını güclənən iqtisadi potensial, dayanıqlı inkişaf modeli və effektiv sosial-iqtisadi siyasət təşkil edir”.

Daha sonra millət vəkili Aydın Mirzəzadə qeyd etdi ki, 1993-cü ilə qədər cənab İlham Əliyev artıq özünü perspektivli siyasi xadim kimi təsdiq edib: ”O, Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunda (MDBMİ) pedaqoji fəaliyyət göstərmiş, beynəlxalq münasibətlər sahəsində dərin bilik və təcrübə qazanıb. Həmin dövrdə ulu öndər Heydər Əliyev 1990-cı illərdə mərkəzi hakimiyyətdən kənarda saxlanılmasına baxmayaraq, təkcə Azərbaycanda deyil, bütövlükdə keçmiş SSRİ məkanında güclü siyasi nüfuza malik olub.

Cənab İlham Əliyev Yeni Azərbaycan Partiyasının yaradılmasında fəal iştirak edib, ölkənin daxili siyasi proseslərinə yaxından cəlb olunub. Onun yüksək təşkilatçılıq bacarığı və idarəetmə qabiliyyəti Dövlət Neft Şirkətində (SOCAR) çalışdığı dövrdə aydın şəkildə özünü göstərib. Xüsusilə 1994-cü ildə imzalanan və Azərbaycanın iqtisadi inkişafında dönüş nöqtəsi hesab olunan “Əsrin müqaviləsi”nin hazırlanması və həyata keçirilməsi prosesində cənab İlham Əliyev şəxsən iştirak edib. Sonrakı illərdə imzalanan mühüm enerji sazişlərində də onun bilavasitə rolu olub.

Deputat kimi seçildiyi Qaradağ rayonunda sosial-iqtisadi inkişafın sürətləndirilməsi məqsədilə xüsusi fond yaratmış, rayonun infrastrukturunun yaxşılaşdırılması və əhalinin rifahının yüksəldilməsi istiqamətində mühüm işlər həyata keçirib. Məhz bu ardıcıl fəaliyyətin nəticəsi olaraq ulu öndər Heydər Əliyev Azərbaycan xalqını cənab İlham Əliyevə səs verməyə çağırıb, ona böyük etimad göstərərək bildirib ki, İlham Əliyev Azərbaycanın qarşısında duran mühüm problemlərin həllinə qadir olan siyasi liderdir”.

Siyasi elmlər üzrə fəlsəfə doktoru Rufiz Qonaqov vurğulayıb ki, Cənab Prezident tərəfindən parlamentə ünvanlanan müraciət qanunverici orqanda müsbət qarşılanıb və dəstəklənib: ”Bu hadisə bir daha Azərbaycan dövlət siyasətinin əsasını təşkil edən yüksək humanizm və sosial ədalət prinsiplərinin təntənəsi kimi qiymətləndirilə bilər. Azərbaycanda amnistiya aktlarının qəbul edilməsi ilk dəfə baş verən hadisə deyil. Əvvəlki illərdə də əfv fərmanları və amnistiya təşəbbüsləri həyata keçirilmiş, bu proseslərdə Birinci vitse-prezident Mehriban Əliyeva tərəfindən irəli sürülən humanist təşəbbüslər mühüm rol oynayıb.

Xüsusilə Yeni il ərəfəsində qəbul edilən bu amnistiya aktı minlərlə məhbusun ailə üzvlərinə sevinc bəxş edib, cəmiyyətin müxtəlif təbəqələri tərəfindən rəğbətlə qarşılanıb. Eyni zamanda, qazilərimizin və şəhid ailələrinin yaxınlarının da amnistiya aktının əhatə dairəsinə daxil edilməsi dövlətin sosial həssas qruplara göstərdiyi diqqət və qayğının bariz nümunəsidir.

Cənab İlham Əliyev 2003-cü ildən etibarən ulu öndər Heydər Əliyevin layiqli davamçısı kimi ölkəyə rəhbərlik edərək, 22 illik prezidentliyi dövründə Azərbaycan tarixində görünməmiş uğurlara imza atıb. Bu dövrdə Azərbaycan təkcə Cənubi Qafqaz regionunda deyil, artıq qlobal miqyasda söz sahibi olan, nüfuzlu və güclü dövlətə çevrilib”.

***Günay Hacıyeva***

# Əhməd İsmayılov: Media savadlılığının artırılması məqsədilə ardıcıl tədbirlər keçirilir



***Media savadlılığının artırılması çoxşaxəli və kompleks prosesdir. Bu baxımdan ailə institutu, təhsil sistemi, dövlət qurumları, qeyri-hökumət təşkilatları və media subyektləri arasında koordinasiyalı və məqsədyönlü əməkdaşlıq səmərəli nəticələrin əldə olunması üçün zəruri şərtdir. “Media Savadlılığı” Həftəsi çərçivəsində keçirilən tədbirlər də məhz bu əməkdaşlığın gücləndirilməsinə, təşəbbüskarlığın artırılmasına və media mühitində məsuliyyətli yanaşmanın təşviqinə xidmət edir.***

AZƏRTAC xəbər verir ki, bu sözləri “Rəqəmsallaşma, Süni İntellekt və Media Savadlılığı” mövzusunda keçirilən konfransda Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov deyib.

O qeyd edib ki, uğurlu beynəlxalq təcrübəyə əsaslanan daxili strategiya çərçivəsində Medianın İnkişafı Agentliyi tərəfindən cəmiyyətdə media savadlılığı bacarıqlarının artırılması məqsədilə mərhələli və ardıcıl tədbirlər həyata keçirilir. “Bu istiqamətdə icra olunan proqramlar nəticəsində indiyədək 25-dən çox regionda 2 mindən artıq gənc prosesə cəlb edilib, ümumtəhsil müəssisələrində media savadlılığı mövzusunun əhatə dairəsinin genişləndirilməsi məqsədilə 20-dən artıq orta məktəbdə 3 mindən çox şagird üçün məlumatlandırıcı sessiyalar təşkil olunub, media subyektləri ilə əməkdaşlıq çərçivəsində maarifləndirici və təşviqedici materiallar hazırlanaraq ictimaiyyətə təqdim edilib”, - deyə Ə.İsmayılov vurğulayıb.



*Mətləb Salahov: “Nikol Paşinyan və komandası qarşıdakı seçkilərə həm də “Axırıncı aşırım” kimi baxır”*

# Paşinyan Peterburqdan “HƏ” cavabı ilə qayıdır?

“Gələnilki parlament və bələdiyyə seçkiləri yaxınlaşdıqca Ermənistan dövləti və hazırkı hakimiyyət üçün gərginlik durmadan artır. Otuz illik siyasi fiqurlara və kilsə hakimiyyətinə son qoymaq üzrə olan Nikol Paşinyan və komandası qarşıdakı seçkilərə həm də “Axırıncı aşırım” kimi baxırlar. Çünki Nikol Vovayeviç bu seçkilərdə mütləq qələbə qazanarsa, o zaman Ermənistan siyasətində artıq təkhakimiyyətlilik sahibi olacaq ki, bu da onun daha uzun müddətə hakimiyyətdə qalması demək olacaq. Bu qələbə həm də mövcud Ermənistan siyasətinin yenidən dizayn edilməsinə, mövcud siyasi meyitlərin kənara atılıb yeni siyasi qüvvələrin meydana çıxmasına səbəb olacaq”.

Bu fikirləri SİA-ya şərhində jurnalist-ekspert Mətləb Salahov bildirib. O qeyd edib ki, N.Paşinyanın Sankt Peterburqda Rusiya prezidenti Vladimir Putinlə görüşüb məxfi müzakirələr aparması daha çox Ermənistan daxilindəki siyasi proseslərlə bağlıdır. “Hamı gözləyir ki, V.Putin qarşıdakı seçkilərdə Ermənistanda siyasi çevriliş edib hazırkı komandanı hakimiyyətdən salacaq. Lakin görünən odur ki, V.Putinin də maraqlarını nəzərə aldığı beynəlxalq siyasi güclər var və N.Paşinyanın üzərindən bir anlığa xətt çəkmək hazırkı situasiyada bölgədə maraqları qüvvələrin gündəliyində yoxdur.

Erməni baş nazirin Sankt Peterburqda Kreml şefi ilə ilk növbədə gələnilki seçkiləri müzakirə etdiyi şübhəsizdir. Serj Sarkisyan, Levon Ter Petrosyan, Robert Koçaryan kimi siyasi tullantılarla yola davam etməyin mənasızlığını anlayan Moskva, Samvel Karapetyan kimi milyonçu səriştəsizlərə də uğursuz dəstəkdən sonra artıq erməni siyasətinin reallıqları ilə üz-üzə qalıb. N.Paşinyanın V.Putinin “xeyir duasını” alıb-almadığını isə bir neçə aydan sonra hamımız görəcəyik”.

***Afət Tahirqızı***

ŞƏRH

# Azərbaycanın müasir inkişaf modeli

*"Bu prezident seçkilərinin əsas əlaməti, xüsusiyyəti və önəmi ondadır ki, müstəqillik dövründə ilk dəfə idi ki, seçkilər ölkəmizin bütün ərazilərində keçirilmişdir. Mən, bildiyiniz kimi, səsvermə prosesində Xankəndidə iştirak etmişdim. Mən Azərbaycanın istənilən yerində səs verə bilərdim, ancaq hesab etdim ki, Xankəndidə səs verməyim daha düzgün olar.... Orada verdiyim səs, o qutuya atdığım bülleten, sadəcə olaraq, bülleten deyildi. Bu, erməni separatçılarının tabutuna vurulan son mismar idi."*

**Prezident İlham Əliyev**



*Həsən Bayramov,*
*Pedaqogika üzrə elmlər doktoru, professor*

XXI əsrin mürəkkəb geosiyasi və iqtisadi reallıqları şəraitində dayanıqlı inkişaf yalnız resurslara deyil, ilk növbədə düşünülmüş strategiyaya, güclü siyasi iradəyə və effektiv idarəetməyə söykənir. Prezident cənab İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Respublikası məhz bu prinsiplər əsasında müasir, çevik və dayanıqlı inkişaf modelini formalaşdırmışdır. Dövlət başçısının vurğuladığı kimi, "Bu gün Azərbaycan gələcəyə çox böyük ümidlərlə baxır. Bunun əsas səbəbi iqtisadi müstəqillik, iqtisadi güc və siyasi iradədir."

Son iyirmi ildən artıq dövrdə Azərbaycan yalnız iqtisadi göstəricilərini deyil, dövlət suverenliyini, beynəlxalq mövqelərini və sosial rifah səviyyəsini fundamental şəkildə gücləndirmiş, regionun aparıcı güc mərkəzinə çevrilmişdir.

Prezident cənab İlham Əliyevin ölkəyə rəhbərlik etdiyi dövrdə sosial-iqtisadi inkişaf dövlət siyasətinin əsas prioritetinə çevrilmişdir. İqtisadi artımın keyfiyyəti və inklüziv xarakter alması məqsədilə sistemli struktur və institusional islahatlar həyata keçirilmişdir. Makroiqtisadi sabitlik təmin olunmuş, dövlət borcu və büdcə kəsiri nəzarət altında saxlanılmış, inflyasiya iqtisadi fəallıq üçün məqbul səviyyədə qorunmuşdur. Qeyri-neft sektorunun inkişafı, sahibkarlığın təşviqi, kiçik və orta biznesin iqtisadiyyatda dominant mövqeyə yüksəlməsi milli iqtisadiyyatın dayanıqlığını artırmışdır. İqtisadiyyat iki qlobal maliyyə böhranından uğurla çıxaraq xarici təsirlərə davamlı olduğunu sübut etmişdir. Dövlət büdcəsi sosial rifahın dəstəklənməsi ilə yanaşı, investisiya fəallığının təminində də mühüm rol oynamışdır.

Azərbaycanın inkişaf modelində insan kapitalı əsas strateji resurs kimi müəyyən edilmişdir. Təhsil infrastrukturunun müasirləşdirilməsi, müəllimlərin peşəkar inkişafı, məktəbəqədər təhsilə çıxışın genişləndirilməsi gələcək nəsillərin rəqabət qabiliyyətli yetişdirilməsinə xidmət edir. Elmi tədqiqat potensialının gücləndirilməsi, tətbiqyönlü innovasiyaların təşviqi və əqli mülkiyyətin inkişafı ölkənin bilik iqtisadiyyatına keçidini sürətləndirmişdir. Səhiyyə sahəsində həyata keçirilən islahatlar əhalinin keyfiyyətli tibbi xidmətlərə əlçatanlığını artırmış, pandemiya dövründə çevik qərarlar minlərlə insanın həyatının qorunmasına imkan yaratmışdır. Ünvanlı sosial yardım mexanizmləri, aztəminatlı ailələrin dəstəklənməsi və genişmiqyaslı sosial proqramlar sosial ədalətin təmininə xidmət etmişdir.

Postpandemiya və postkonflikt dövründə Azərbaycan Respublikası "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" sənədi ilə keyfiyyətcə yeni strateji mərhələyə daxil olmuşdur. Bu sənəd dayanıqlı artım, sosial ədalət, innovasiya, Böyük Qayıdış və yaşıl inkişaf kimi prioritetləri bir sistem daxilində birləşdirir.

2022–2026-cı illəri əhatə edən Strategiyanın icrası nəticəsində iqtisadiyyatın şaxələnməsi dərinləşmiş, maliyyə dayanıqlığı güclənmiş və uzunmüddətli ehtiyatlar formalaşdırılmışdır. Növbəti mərhələdə isə süni intellekt, rəqəmsal iqtisadiyyat və yüksək texnologiyalar əsas inkişaf drayverlərinə çevriləcəkdir.

Azərbaycanın enerji siyasəti dövlət müstəqilliyinin və beynəlxalq mövqelərinin möhkəmlənməsində mühüm rol oynamışdır. Bakı–Tbilisi–Ceyhan neft kəməri və Cənub Qaz Dəhlizi Azərbaycanı Avropanın enerji təhlükəsizliyinin əsas təminatçılarından birinə çevirmişdir. Bu layihələr iqtisadi dividendlərlə yanaşı, ölkənin geosiyasi çəkisini də artırmışdır. Eyni zamanda, nəqliyyat-logistika infrastrukturunun inkişafı Azərbaycanın Şərq-Qərb və Şimal-Cənub dəhlizlərində mühüm tranzit mərkəzinə çevrilməsini təmin etmişdir.

Prezident cənab İlham Əliyevin həyata keçirdiyi ardıcıl ordu quruculuğu siyasəti nəticəsində Azərbaycan Silahlı Qüvvələri regionun ən güclü ordularından birinə çevrilmişdir. 44 günlük Vətən müharibəsində əldə olunan tarixi Qələbə milli gücün, siyasi iradənin və xalq–ordu birliyinin təntənəsi oldu. 2023-cü ildə həyata keçirilən antiterror əməliyyatı ilə Azərbaycan öz suverenliyini tam bərpa etmiş, dövlətin ərazi bütövlüyü və konstitusiya quruluşu təmin olunmuşdur. Zəfər diplomatiyası cənab İlham Əliyevin qlobal informasiya məkanında apardığı prinsipial siyasətin parlaq nümunəsidir.

İşğaldan azad edilmiş ərazilərə Böyük Qayıdış proqramı müasir dünya tarixində analoqu az olan yenidənqurma modelidir. Qarabağ və Şərqi Zəngəzurda "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyaları tətbiq olunur, müasir infrastruktur qurulur, yaşayış və məşğulluq təmin edilir.

Minatəmizləmə, yol, enerji, su və sosial obyektlərin tikintisi bölgənin iqtisadi reinteqrasiyasını sürətləndirir. Bu proses yalnız bərpa deyil, gələcəyə hesablanmış dayanıqlı inkişaf modelidir. Şəhid ailələri və qazilərə göstərilən diqqət Prezident İlham Əliyevin sosial siyasətinin əsas sütunlarından biridir. Mənzil, avtomobil, təqaüd və reabilitasiya proqramları dövlətin vətəndaşa məsuliyyətinin real təzahürüdür. "YAŞAT" Fondu bu siyasətin institusional davamı kimi çıxış edir.

2003-cü ildə Azərbaycan Respublikasının Prezidenti seçildikdən sonra İlham Əliyevin rəhbərliyi ilə xalqımız misilsiz nailiyyətlərə imza atmışdır. Ötən dövrdə həyata keçirilmiş ardıcıl və məqsədyönlü siyasi kurs ölkəmizin sürətli və dayanıqlı inkişafını, güclü iqtisadi potensialın formalaşmasını, müasir cəmiyyət quruculuğunu, vətəndaşların rifahını, təhlükəsizlik və müasir ordu quruculuğu kimi məsələlərin effektiv həllini təmin etmiş, ölkəmizin beynəlxalq nüfuzu yüksəlmiş, dünyada strateji əhəmiyyəti artmışdır.

Prezident cənab İlham Əliyev Azərbaycan siyasi sisteminə rasional siyasi davranış modeli, məntiqi mühakimələrə və analitik təhlilə əsaslanan, mütərəqqi, pozitiv, milli məqsədlərə xidmət edən siyasi realizmə söykənən siyasi fəaliyyət nümunəsi gətirdi, öz fəaliyyəti və davranışı ilə siyasi sistemimizə siyasi mədəniyyət, milli mənəviyyatımıza uyğun siyasi əxlaq standartı, milli siyasi etika nümunəsi təqdim etdi. Bu gün Azərbaycan xalqı formalaşmış yeni reallıqlar mühitində inamla və qürurla öz inkişafının növbəti mərhələsinə qədəm qoymuşdur. Yeni dövrdə qarşıda duran strateji vəzifələrimiz müstəqilliyimizi, əldə olunmuş nailiyyətləri daha da möhkəmləndirmək, Azərbaycanı davamlı və dayanıqlı inkişaf edən ölkəyə çevirməkdir. İşğaldan azad edilmiş ərazilərdə irimiqyaslı bərpa və yenidənqurma işlərinin, Böyük Qayıdışın davam etdirilməsi, təhlükəsizliyin təmin olunması və müasir ordu quruculuğu, qabaqcıl elmə və yüksək texnologiyalara əsaslanan iqtisadiyyatın formalaşdırılması, cəmiyyətin rifahının yüksəldilməsi, dövlət idarəçiliyi sisteminin təkmilləşdirilməsi, müstəqil xarici siyasət sayəsində Azərbaycanın beynəlxalq mövqelərinin daha da gücləndirilməsi, cəmiyyət həyatında şəffaflığın və ictimai iştirakçılığın, həmçinin ölkədə mövcud siyasi dialoqun dərinləşdirilməsi, zəngin mədəni irsimizin, milli-mənəvi dəyərlərimizin qorunması və digər məsələlər həyata keçirilən siyasətin prioritet istiqamətləri olacaqdır. Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə formalaşdırılmış Azərbaycan inkişaf modeli güclü dövlətçilik, dayanıqlı iqtisadiyyat, sosial ədalət və milli qürur üzərində qurulmuşdur. Qazanılmış Zəfər, Böyük Qayıdış, artan beynəlxalq nüfuz və yüksələn rifah bu modelin real nəticələridir. Azərbaycan bu gün qalib, suveren və gələcəyə inamla baxan dövlətdir. Qarşıdakı illərdə də bu strateji kurs ölkəmizi daha yüksək inkişaf mərhələlərinə daşıyacaqdır.

ARAŞDIRMA

# İnfluenser jurnalistikanın yüksəlişi və ənənəvi medianın transformasiyası




***İnfluenser jurnalistikanın son illərdə ənənəvi jurnalistikanı müəyyən mənada üstələməsi müasir informasiya cəmiyyətində baş verən dərin sosial, texnoloji və kommunikativ dəyişikliklərin nəticəsidir. SİA mövzu ilə bağlı araşdırma edib: İnformasiyanın istehlak forması və auditoriyanın gözləntiləri dəyişdikcə, jurnalistikanın təqdimat üsulları da bu reallıqlara uyğunlaşmağa məcbur olmuşdur. Məhz bu kontekstdə influenser jurnalistika daha çevik, daha yaxın və daha təsirli kommunikasiya modeli kimi ön plana çıxmışdır.***

Müasir dövrdə auditoriya informasiyanı əsasən sürətli, qısa və vizual formada qəbul etməyə üstünlük verir. Sosial şəbəkələr vasitəsilə yayılan məzmunlar ənənəvi qəzet yazıları və uzun televiziya reportajları ilə müqayisədə daha tez diqqət çəkir və daha geniş auditoriyaya çatır. İnsanların mobil cihazlardan intensiv istifadəsi informasiya istehlakını əsasən rəqəmsal platformalara yönəltmiş, bu isə influenser jurnalistikanın geniş yayılmasına əlverişli zəmin yaratmışdır.

Digər mühüm amil sosial media platformalarının alqoritmik mexanizmləridir. Bu platformalar daha çox reaksiyalar yaradan, emosional və interaktiv məzmunu önə çıxarır. İnfluenser jurnalistlər isə məhz bu tələblərə uyğun kontent istehsal edərək auditoriya ilə birbaşa əlaqə qurur və gündəmi operativ şəkildə təqdim edirlər. Ənənəvi media isə çox zaman institusional çərçivələr və redaksiya qaydaları səbəbindən bu sürətə uyğunlaşmaqda çətinlik çəkir.



İnfluenser jurnalistikanın üstünlüyünü şərtləndirən əsas məqamlardan biri də inandırıcılıq faktorudur. İnfluenserlər auditoriya ilə şəxsi münasibət qurur, onların gündəlik həyatının bir parçasına çevrilir və bu da izləyicilərdə daha yüksək etimad yaradır. İnsanlar artıq yalnız rəsmi informasiya mənbələrinə deyil, özlərinə yaxın hesab etdikləri şəxslərin fikirlərinə daha çox diqqət yetirirlər. Bu tendensiya ənənəvi medianın obyektiv, lakin emosional baxımdan məsafəli mövqeyini nisbətən zəiflətmişdir. Bundan əlavə, influenser jurnalistika real vaxt rejimində məlumat yaymaq imkanına malikdir. Hadisələr baş verən anda canlı yayımlar, qısa paylaşımlar və operativ şərhlər vasitəsilə ictimaiyyətə çatdırılır. Bu çeviklik informasiyanın gecikmədən yayılmasını təmin edir və auditoriyanın gündəmi sosial mediadan izləməsinə səbəb olur.

İqtisadi amillər də bu prosesdə mühüm rol oynayır. İnfluenser jurnalistika sponsorlu məzmun, reklam və fərdi brend üzərindən gəlir əldə etmə imkanları ilə daha çevik iqtisadi model təqdim edir. Ənənəvi media isə maliyyə baxımından daha çox institusional asılılıq içərisində fəaliyyət göstərir ki, bu da onun manevr imkanlarını məhdudlaşdırır.

İnfluenser jurnalistikanın ənənəvi jurnalistikanı üstələməsi təsadüfi deyil, dövrün tələblərindən irəli gələn obyektiv bir prosesdir. Auditoriya davranışının dəyişməsi, rəqəmsal texnologiyaların inkişafı, sürət, interaktivlik və şəxsi etimad faktoru bu transformasiyanın əsas səbəbləridir. Bununla belə, ənənəvi jurnalistika hələ də analitik dərinlik, fakt yoxlaması və peşəkar etika baxımından öz əhəmiyyətini qoruyur və gələcəkdə bu iki modelin paralel və qarşılıqlı təsir şəklində inkişaf edəcəyi gözlənilir.

**Günay Hacıyeva**

# Amnistiya aktı cəmiyyətdə həmrəyliyin möhkəmlənməsinə xidmət edir

*Prezident İlham Əliyevin irəli sürdüyü amnistiya aktının elan edilməsi ilə bağlı təşəbbüsünün icrasına başlanılıb*



***Azərbaycan Respublikasının Prezidenti, Fateh Sərkərdə İlham Əliyevin Fərmanı ilə 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan olunması cəmiyyətdə birliyin və bərabərliyin daha da möhkəmlənməsinə yeni imkanlar yaratdı. Ərazi bütövlüyümüzün və suverenliyimizin təmin olunması uca millətimizin ən böyük qələbəsidir.***

Hərbi, siyasi, diplomatik qələbə 1995-ci il noyabrın 12-də Ulu Öndərimiz Heydər Əliyevin müəllifliyi ilə hazırlanan və ümxalq referendum yolu ilə qəbul edilən müstəqil Azərbaycanın Konstitusiyasının hüquqi qüvvəsinin bütün ölkə ərazində təmin olunması deмək oldu. Hüquqi dövlət quruculuğuna, humanizm prinsiplərinə və xeyirxahlığa sadiq olan Ulu Öndərimiz Heydər Əliyevin ən layiqli siyasi varisi, ölkə Prezidenti İlham Əliyev vaxtaşırı olaraq əfv sərəncamları imzalayır, amnistiya təşəbbüsləri ilə çıxış edir. Bununla cəzadan azad olunacaq şəxslərin bir daha cinayət törətməyəcəklərinə, işləri, fəaliyyətləri ilə dövlətimizin inkişafına öz töhfələrini verəcəklərinə ümid edilib. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev deyirdi ki, "hər bir insanın özünəməxsus, çoxsaylı arzuları ola bilər. Həbsxanada olanların isə



ən ümdə arzusu məhz azadlığa çıxmaq, əzizlərinə qovuşmaqdır". Bu cür xeyirxahlığının, humanistliyinin nəticəsidir ki, Ümummilli Lider Heydər Əliyev tərəfindən 1995-2003-cü illərdə 32 Əfv fərmanı imzalanıb, 7 Amnistiya aktı qəbul edilib. Azərbaycan Prezidenti İlham Əliyev Ulu Öndəri Heydər Əliyevin əsasını qoyduğu siyasətə uyğun olaraq 2003-2025-ci illər ərzində 39 Əfv sərəncamı imzalayıb, həmin dövrdə 5 Amnistiya aktı qəbul edilib. Azərbaycan respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva Milli Məclisin deputatı olduğu dövrdə irəli sürülmüş təşəbbüs əsasında 4 amnistiya aktının qəbul olunması, sonuncu akt əsasında isə 10 min məhkumun azadlığa qovuşması cəmiyyətdə böyük coşqu və rəğbətlə qarşılanmışdır.

## Dekabrın 22-dən Amnistiya aktının icrasına başlanılıb

Mərhəmət və humanistlik ənənələrinin davam olaraq Prezident İlham Əliyev amnistiya aktının elan edilməsi ilə bağlı təşəbbüslə çıxış edib. Bu təşəbbüsün əsasında Milli Məclis Amnistiya elan edilməsi ilə bağlı qərar qəbul edib. Bu, ən böyük amnistiya aktı hesab olunur. Amnistiya aktının 20 mindən çox məhkuma şamil ediləcəyi qeyd olunur. Dekabrın 22-dən Amnistiya aktının icrasına başlanılıb. Cəzaçəkmə müəssisələrindən və müvəqqəti saxlanılma yerlərindən məhkumların azad edilməsi həyata keçirilir. Proses də KİV-lər, vətəndaş cəmiyyətinin və dövlət orqanlarının iştirak edirlər. Ədliyyə Nazirliyi qəbul edilən qərarın icrasını 4 ay ərzində icra edəcək. Prezident İlham Əliyevin təşəbbüsü ilə irəli sürülən amnistiya aktı Bakı İstintaq Təcridxanasında icra olunub. İstintaq Təcridxanadan bu gün 12 nəfər azadlığa buraxılıb. Amnistiya aktının icrası Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinə məxsus 4 saylı qadın cəzaçəkmə müəssisəsində həyata keçirilib.Verilən məlumata görə, cəzaçəkmə müəssisəsində amnistiya aktı ümumilikdə 52 nəfərə şamil olunur. İlkin mərhələdə 22 qadın azadlığa buraxılıb. Tədbirdə İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman) Səbinə Əliyeva, Penitensiar Xidmətin rəis müavini Orxan Qasımov, Sosial Tədqiqatlar Mərkəzinin İdarə Heyətinin sədri, Milli Məclisin İnsan hüquqları komitəsinin sədri Zahid Oruc, Ədliyyə Nazirliyi yanında İctimai Şuranın sədri Çingiz Qənizadə, həmçinin media və ictimaiyyət nümayəndələri iştirak ediblər. Penitensiar Xidmətin rəis müavini Orxan Qasımov bildirib ki, amnistiya aktı humanizm prinsiplərinə əsaslanır və Ədliyyə Nazirliyi tərəfindən mütəşəkkil və operativ şəkildə icra olunur. Tədbirdə çıxış edən Ombudsman Səbinə Əliyeva qeyd edib ki, Azərbaycanda insan hüquq və azadlıqlarının qorunması əsas prioritetlərdəndir. Onun sözlərinə görə, əfv və amnistiya siyasəti Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır və bu siyasət Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bildirilib ki, bu, sayca 13-cü və əhatə dairəsinə görə ən geniş amnistiya aktıdır. Səbinə Əliyeva təşəbbüsə görə Prezidentə təşəkkür edib və amnistiyanın cəmiyyətdə mühüm mənəvi-tərbiyəvi əhəmiyyət daşıdığını qeyd edib. Milli Məclisin İnsan hüquqları komitəsinin sədri Zahid Oruc isə bildirib ki, əfv institutu Ulu Öndər Heydər Əliyev tərəfindən formalaşdırılıb və bu amnistiya yeni dövrün mühüm qərarlarından biridir. O, azadlığa buraxılan şəxslərə ailələri və cəmiyyət üçün faydalı olmalarını arzulayıb, zərərçəkmişlərə qarşı kin saxlamamağa çağırıb: "Amnistiya cəmiyyətdə barış və həmrəyliyin möhkəmlənməsinə xidmət edir. Bu, eyni zamanda penitensiar müəssisələrdəki sıxlığın azalmasına da töhfə verəcək".

## 5 minə yaxın şəxs həbs cəzalarından tam azad ediləcək

Amnistiya aktına görə, 4 ay müddətində 5 minə yaxın şəxs həbs cəzalarından tam azad ediləcək. Həmçinin azadlıqdan məhrum etmə növündə cəza çəkən 3 minə yaxın məhkumun cəzası 6 ay azaldılacaq. Qalan hissə isə azadlıqdan məhrumetmə ilə bağlı olmayan və azadlığın məhdudlaşdırılması (elektron qolbaq) cəzasına məhkum edilənlərə aiddir. Ədliyyə Nazirliyi bu qərarı 4 ay ərzində icra etməlidir. Amnistiya aktına əsasən, Azərbaycanın suverenliyinin və ərazi bütövlüyünün qorunması uğrunda aparılan döyüş əməliyyatlarında, o cümlədən Vətən müharibəsində və 2023-cü il sentyabrın 19-20-də keçirilmiş antiterror əməliyyatında iştirak etmiş şəxslərin, eləcə də bu əməliyyatlarda həlak olmuş və ya xəbərsiz itkin düşmüş şəxslərin yaxın qohumlarının, Ermənistanın mülki



əhaliyə qarşı hərbi təxribatı nəticəsində əlil olmuş şəxslərin, habelə qadınların, 60 yaşına çatmış şəxslərin, cinayət törədərkən yetkinlik yaşına çatmayanların və digər şəxslərin cəzadan və ya cinayət məsuliyyətindən azad edilmələri nəzərdə tutulur. Sənədə görə, böyük ictimai təhlükə törətməyən və ya az ağır cinayət, habelə ehtiyatsızlıqdan cinayət törətdiklərinə görə azadlıqdan məhrumetmə cəzasına məhkum olunmuş bir sıra şəxslər cəzadan azad ediləcək və ya cəzalarının çəkilməmiş hissəsi azaldılacaq.

Nəzərə almaq lazımdır ki, torpaqlarımızın erməni separatçı-terrorçu dəstələrindən azad edilməsindən sonra Prezidentimiz İlham Əliyev tərəfindən xalqa daha bir xoş müjdə olan Zəfər Günü münasibətilə aministiya aktı təşəbbüsü elan etmişdi. O zaman amnistiya aktı 17 min 267 şəxsə şamil olunmuşdur. Bu qərar tətbiq olunan şəxslərin sayına görə həmin ilə qədər qəbul edilmiş ən geniş amnistiya olub. Amnistiyanın tətbiq olunduğu şəxslərdən 733-ü Vətən müharibəsinin iştirakçısı, 837-si qadın, 65-i yetkinlik yaşına çatmayanlardır. Amnistiya qərarı azadlıqdan məhrumetmə yerlərində cəza çəkən 5971 məhkuma tətbiq edilib. Onlardan 2710 məhkum azadlıqdan məhrumetmə cəzasından azad olunub, 3261 məhkumun cəzasının çəkilməmiş müddəti 6 ay azaldılıb. Həmçinin azadlıqdan məhrumetmə ilə əlaqədar olmayan cəzalara məhkum edilmiş 8559 şəxsə amnistiya tətbiq edilib. Onlardan 5722 məhkum cəzadan azad edilib, 2837 məhkumun cəzası azaldılıb. Azadlığın məhdudlaşdırılması cəzasına məhkum edilmiş 1909, islah işləri cəzasına məhkum olunmuş 2471, ictimai işlər cəzasına məhkum edilmiş 86, cərimə cəzasına məhkum edilmiş 1202 və digər cəzalara məhkum olunmuş 54 şəxs bu cəzalardan azad edilib. Şərti məhkum edilmiş, cəzasının çəkilməsi təxirə salınmış və cəzadan şərti olaraq vaxtından əvvəl azad edilmiş 62 məhkum barəsində də amnistiya tətbiq olunub.

## Amnistiya aktı cəmiyyətdə sevinclə qarşılandı

Azərbaycan Prezidenti Prezident İlham Əliyevin təşəbbüsü ilə irəli sürülən Amnistiya aktı cəmiyyətdə böyük coşqu və alqışlarla qarşılanıb. İctimaiyyət nümayəndələri Prezidentimiz İlham Əliyevə və humanistliyinə görə təşəkkür edirlər. Amnistiya akı yüzlərlə insanın yenidən normal həyatını bərpa etməsi, ailələrinin yaşayışına yardımçı olması deməkdir. Həm də bu cür insanpərvərlik keçmiş məhkumların dövlətin inkişafına yeni şansın verilməsi deməkdir. Əminliklə demək olar ki, azadlığa çıxacaq hər bir insan bir daha səhvə yol verməyəcək, sağlam mövqeyi, inamlı fəaliyyəti, düzgün, əsaslı işləri ilə nümunəvi vətəndaşa çevriləcəklər. İnsan səhv edə bilər, yanlığa da yol verməsi mümkündür, yetər ki, səhvlərini, yanlış addımlarını bir daha təkrarlamasın.

Bütün bu kimi insanpərvərlik, xeyirxahlıq, humanistlik, xalqın və dövlətin maraqlarına söykənən siyasətin aparılması onu təsdiq edir ki, Ulu Öndərimiz Heydər Əliyevin qurduğu Azərbaycan dövlətinin sükanı əmin əldədir. Ulu öndər Heydər Əliyevin 1 oktyabr 2003-cü ildə Azərbaycan xalqına müraciətində dediyi müdrik kəlamlar öz real müsbət nəticəsini verir: "Üzümü Sizə - həmvətənlərimə tutaraq, qarşıdan gələn prezident seçkilərində prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası sədrinin I müavini İlham Əliyevi dəstəkləməyə çağırıram. O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".

Tam qətiyyətlə vurğulamaq olar ki, 2003-cü il prezident seçkilərində xalqın böyük əksəriyyətinin səsini qazanaraq Prezident seçilən cənab İlham Əliyev seçkilərərəfəsi verdiyi bütün vədlərinə əməl edib. Ən əsası uğurlarımızın ən yüksək zirvəsi 30 il erməni işğalı altında olmuş torpaqlarımızın azad edilməsi oldu. Bu gün Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi ilə yeni-yeni uğurlara, zəfərlərə imza atır. Bu uğurlar davamlı xarakter alacaq. Çünki Ulu Öndərimiz Heydər Əliyevin əsasını qoyduğu siyasət tərəqqiyə, inkişafa əsaslanan siyasətdir.

***İlham Əliyev***



# Dünyanın soyuducusu xarab olub



***Dünyanın getdikcə iqlimlə bağlı problemlərinin artması bütün canlı aləmi təhlükəyə atır. İqlim məsələləri üzrə ekspertlər, alimlər qış mövsümü ilə bağlı standartların dəyişdiyini, Arktikanın yeni standartlarının formalaşdığını deyirlər. "Dünyanın soyuducusu" kimi tanınan bölgənin qlobal orta göstəricidən dörd dəfə sürətlə isindiyini bildirilir.***

Alimlərin bildirdiyinə görə, Arktika bu il tarixinin rekord isti ilini yaşayıb, dəniz buzları kiçilib, dünyanın şimal enlikləri iqlim böhranı səbəbindən daha yağışlı və daha az buzlu olmağa doğru sürətlə dəyişib. ABŞ Milli Okean və Atmosfer Administrasiyasının (NOAA) məlumatına görə, 2024-cü ilin oktyabrından 2025-ci ilin sentyabrına qədər bütün Arktika bölgəsində temperatur müasir qeydlərin aparıldığı ümumi 125 ilin ən isti ili olub, həmçinin son onillik Arktikada qeydə alınan ən isti 10 il olub.

Qalıq yanacaqlarının yandırılması, atmosferə çox miqdarda $CO_2$ atılması səbəbindən Arktika qlobal orta göstəricidən dörd dəfəyə qədər sürətlə qızır və bu əlavə istilik planetin qalan hissəsi üçün əsas iqlim tənzimləyicisi rolunu oynayan Arktikanı, yəni dünyanın soyuducusunu deformasiya edir. NOAA-nın illik Arktika hesabatda bildirdiyinə görə, 2025-ci ildə dəniz buzunun maksimum həcmi 47 illik peyk rekordunun ən aşağı səviyyəsi olub. Bu, Arktikanın daha isti və yağışlı olması ilə 1980-ci illərdən bəri bölgənin ən qədim və ən qalın buzunun 95%-dən çox azalması ilə uzunmüddətli bir tendensiyanın son əlamətidir. Bu il Arktikada rekord yağıntı ili oldu. Bunun çox hissəsi qar şəklində çökmür. Bu gün Arktika üzərində iyun ayında qar örtüyü 60 il əvvəlkindən iki dəfə azdır.

"Bu il tarixdə ən isti il oldu və ən çox yağıntı düşdü - bu iki hadisənin bir ildə baş verməsi təhlükəlidir", - deyə Kolorado Universitetinin Milli Qar və Buz Məlumat Mərkəzinin Arktika üzrə alimi və Arktika hesabat kartının redaktoru Metyu Lenqdon Drukenmiller bildirib. O deyib ki, bu ilki vəziyyət gələcəkdə nələrin baş verəcəyi barədə proqnozlar verir.

Alimlər müstəsna istiliyin qışda özünü göstərməsi və ən soyuq aylarda Arktikada dəniz buzunun illik artımına təsir etməsinə təəccübləniblər. Son bir ayda dəniz buzunun həcmi tarixdə ən aşağı olub və bu, potensial olaraq gələn il dəniz buzunun daha da azalacağının bir xəbərçisidir. Drukenmiller deyib: "Dəniz buzunda davamlı azalma müşahidə olunur və təəssüf ki, indi hətta qışda belə yağış görürük. Qışın ortasında, Arktikanın soyuq olacağını gözlədiyimiz zaman dəyişikliklər görürük. Arktikada qışın bütün konsepsiyası yenidən müəyyənləşdirilir."

Bu dəyişikliklər Arktikada insanlar və vəhşi təbiət tərəfindən kəskin şəkildə hiss olunur. Qarın üzərinə səyahət edən insanlar üçün daha sürüşkən və təhlükəli şərait yaradır. Buzlaqların geri çəkilməsi, bu il Alyaskanın Cuno şəhərində müşahidə olunduğu kimi, potensial təhlükəli daşqınlara da səbəb ola bilər.

Dəniz buzlarının itirilməsi qaranlıq okeanın geniş ərazilərini açır və qlobal temperaturu artıran istiliyi əks etdirmək əvəzinə, daha çox udur. Əriyən dəniz buzlarının özü dənizlərin qalxmasına səbəb olmasa da, quruda yerləşən buzlaqların itirilməsi təhlükəlidir. NOAA-nın məlumatına görə, nəhəng Qrenlandiya buz təbəqəsi 2025-ci ildə 129 milyard ton buz itirib. Bu, dəniz səviyyəsinin qalxmasına əlavə olaraq sahil şəhərlərini gələcək nəsillər üçün təhlükə altına alacaq.

"Arktikanın istiləşməsinin təsirlərini görürük", - deyə "Climate Central"ın iqlim üzrə alimi Zak Labe bildirib. "Sahil şəhərləri dəniz səviyyəsinin yüksəlməsinə hazır deyil, biz Arktikada balıqçılığı tamamilə dəyişdirmişik ki, bu da dəniz məhsulları üçün ərzaq qiymətlərinin artmasına gətirib çıxarır. Biz Arktikanı uzaq bir yer kimi təsəvvür edə bilərik, amma oradakı dəyişikliklər dünyanın qalan hissəsinə təsir göstərir."

**Lalə Mehralı**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

***Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "ekologiya və ətraf mühitin mühafizəsi " istiqaməti çərçivəsində hazırlanıb.***



# "Avropa Parlamentinin Azərbaycana qarşı sərt mövqeyi ikili standart siyasətidir"

***"Avropa Parlamentinin son illərdə Azərbaycana qarşı qəbul etdiyi qətnamələr və keçirdiyi dinləmələr regionda formalaşan sülh prosesinə təsir baxımından haqlı olaraq ciddi narahatlıq doğurur".***

**POLİTOLOQ**

Bu sözləri SİA-ya açıqlamasında politoloq Rəşad Bayramov deyib.Onun sözlərinə görə, xüsusilə Vətən müharibəsinədək AP-nin Azərbaycanın ərazi bütövlüyünü Gürcüstan, Ukrayna və Moldova ilə müqayisədə yetərincə dəstəkləməməsi və bir çox hallarda ölkəmizə qarşı böhtan xarakterli yanaşma sərgiləməsi, beynəlxalq aləmdə ikili standartların sistematik təzahürü kimi qiymətləndirilə bilər: "Görünən odur ki, Avropa İttifaqı müxtəlif platformalarda öz siyasətini Cənubi Qafqazdakı maraqları naminə qurur və bu, sistematik şəkildə Azərbaycanın maraqlarına zidd addımlar şəklində özünü göstərir.

Belə bir yanaşmanın aydın nümunəsi Aİ-nin Ermənistanla imzaladığı son sənəddir. Həmin sənəddə ABŞ-ın vasitəçiliyi ilə hazırlanmış TRİPP layihəsinə istinadın olmaması, Avropa və Ermənistanın Vaşinqtonun təşəbbüslərinə qarşı çıxdığını göstərir. İkili standartların əsas səbəbi isə geosiyasi və institusional maraqlardan irəli gəlir və özünü müxtəlif sahələrdə göstərir. Biz bunu Aİ-nin sanksiya siyasətndə də görürük. Belə ki, Azərbaycanın bir neçə gəmisinə qarşı sanksiya tətbiq edən Aİ nədənsə hələ də Yunanıstan və Kiprin gəmiləri ilə bağlı oxşar qərarlar qəbul etmir və ya hələ də Rusiyadan böyük miqdarda neft alan Almaniya və digər Ai ölkələrinə qarşı müvafiq addımlar atmır. Rusiyaya sanksiyalardan yayınmaq üçün dəstək verən, Avropada istehsal olunan strateji məhsulların reeksporu ilə məşğul olan Ermənistanla bağlı da oxşar qərarlar qəbul etmir.



Avropa Parlamentində insan haqları mövzusunda keçirilən dinləmələr də olduqca qərəzli xarakter daşıyır. Ermənistanda çoxlu sayda müxalifətçilərin, kilsə nümayəndələrinin, media təmsilçilərinin və ictimai fəalların həbsinə baxmayaraq, Aİ bu ölkə ilə bağlı heç bir dinləmə təşkil etməyib. Bunun əksinə olaraq, Azərbaycan hədəfə alınır, müharibə cinayətkarlarının azadlığa buraxılmasına dair çağırışlar edilir. Bu, Azərbaycanın sülh gündəliyinə mane olmaq və prosseslərə ikili standartlar prizmasından yanaşmağın ən bariz göstəricisidir.Yekun olaraq, Avropa Parlamentinin Azərbaycana qarşı sərt və tənqidi mövqeyi ikili standart siyasətinin sistematik təzahürü kimi qiymətləndirilə bilər. Bunun arxasında həm geosiyasi maraqlar, həm ideoloji yanaşmalar və həm də lobbiçilik dayanır".

**Ziya Hikmətoğlu**

SON SƏHİFƏ
SƏS
23 dekabr
2025-ci il

# Hamı yatanda mətbəxə gedənlər: bu davranış nə deyir?



*Gecə saatlarında təkrarlanan yemək ehtiyacı çox zaman iradə zəifliyi kimi qiymətləndirilsə də, mütəxəssislər bu davranışın arxasında dayanan daha dərin səbəblərə diqqət çəkirlər. Gecə yemək sindromu günün ilk yarısında iştahanın zəif olması, axşam və gecə saatlarında isə qida qəbulunun kəskin artması ilə xarakterizə olunan psixo-fizioloji pozuntudur. Bu sindrom yuxu rejimini, hormonal tarazlığı və psixoloji vəziyyəti pozmaqla yanaşı, uzunmüddətli perspektivdə piylənmə və metabolik problemlər üçün risk yaradır. SİA mövzu ilə bağlı araşdırma edib.*

ARAŞDIRMA

## Gecə yemək sindromu nədir?

Gecə yemək sindromu ilk dəfə 1950-ci illərdə tibbi ədəbiyyata daxil edilib. Sindrom adətən gündəlik kalorinin əhəmiyyətli hissəsinin axşam və gecə qəbul edilməsi, gecə yuxudan oyanaraq yemək yemə ehtiyacı, səhərlər iştahasızlıq və ya yeməkdən imtina kimi əlamətlərlə müşahide olunur. Burada əsas məqam ondan ibarətdir ki, insan yemək yemədən yenidən yuxuya gedə bilmədiyini düşünür.

## Əsas əlamətlər

-Səhər saatlarında iştahanın olmaması
-Axşamdan sonra nəzarətsiz yemək istəyi
-Gecə ən azı bir dəfə yemək üçün oyanmaq
-Yeməkdən sonra günahkarlıq və narahatlıq hissi
-Yuxunun tez-tez bölünməsi
-Zamanla çəki artımı

Bu əlamətlər mütəmadi və uzun müddət davam etdikdə sindromdan danışmaq mümkündür.

## Səbəblər: problem haradan qaynaqlanır?

Hormonal amillər
-Melatonin səviyyəsinin aşağı olması yuxu rejimini pozur
-Leptin (toxluq hormonu) balansının pozulması iştahanı artırır
-Kortizolun (stres hormonu) gecə saatlarında yüksək qalması yemək istəyini gücləndirir





## Psixoloji faktorlar

-Xroniki stres
-Depressiya və narahatlıq pozuntuları
-Emosional aclıq və gərginlikdən qaçma davranışı

Həyat tərzi
-Gün ərzində qeyri-kafi və nizamsız qidalanma
-Gec yatmaq, ekran qarşısında uzun müddət qalmaq
-Uzunmüddətli pəhrizlər və sərt qadağalar

## Kimlər risk altındadır?

-Gecə növbəsində çalışanlar
-Yüksək stres altında yaşayan şəxslər
-Depressiya və yuxu pozuntusu olanlar
-Piylənmə problemi yaşayanlar
-Uzun müddət pəhriz saxlayanlar

## Gecə yemək sindromu ilə gecə aşırı yemə arasındakı fərq

Bu sindrom bir dəfə gecə yemək demək deyil. Epizodik gecə yeməkləri normal ola bilər. Gecə yemək sindromu isə davamlıdır, psixoloji narahatlıq yaradır və yuxu və gündəlik funksionallığı pozur.

## Müalicə və idarəetmə yolları

-Tibbi və psixoloji yanaşma
-Psixoloq və ya psixiatr dəstəyi
-Koqnitiv-davranış terapiyası
-Zərurət olduqda dərman müalicəsi

Qidalanma vərdişlərinin tənzimlənməsi
-Gün ərzində balanslı və kifayət qədər qidalanma
-Axşam saatlarında protein və lif tərkibli qidalar
-Gecə aclığına səbəb yaradan şəkərli və sürətli karbohidratlardan uzaq durmaq

Yuxu rejimi
-Sabit yatma və oyanma saatları
-Yatmazdan əvvəl ekran istifadəsinin azaldılması
-Rahatlaşdırıcı axşam rutinləri

Gecə yemək sindromu təkcə yemək davranışı problemi deyil, orqanizmin psixoloji və bioloji balansının pozulduğunu göstərən ciddi siqnaldır. Bu sindromu görməzlikdən gəlmək əvəzinə, səbəblərini anlamaq və düzgün yanaşma seçmək uzunmüddətli sağlamlıq üçün əsas şərtdir.

*Ayşən Vəli*


## “SƏS” qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

**1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544**
**2. Mətbuat Yayım MMC – 0124411991, 0124404694**
**3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969**
**4. Pressainform MMC – 0125115191, 0504560835, 0553156002**
**5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343**
**6. Ziya LTD – 0124977696, 0503067744**
**7. Bakmətbuat MMC 0502644010**

**1 nüsxə 1 aylığı 8 AZN**
**6 aylıq 48 AZN**
**1 illik 96 AZN**

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**

“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR

**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 3000**